**Azərbaycan Respublikası Bakı şəhəri**

**Binəqədi Rayon İcra Hakimiyyəti başçısının**

S Ə R Ə N C A M I

№ 307 "15" 12 2021-ci il

**2022-ci ildə ev təsərrüfatlarının uçotu işinin mütəşəkkil qaydada aparılmasını təmin etmək məqsədilə "Xüsusi Qərargah"ın yaradılması haqqında**

Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdirinin yerli icra hakimyyəti orqanları ərazisində olan fərdi yaşayış evləri və çoxmənzilli binalardakı mənzillər üzrə təsərrüfatbaşına uçot kitablarında bütün məlumatların mövcud vəziyyətə əsasən qeyd edilməsi, təsərrüfat üzvlərinin və həmin ünvanlarda müvəqqəti yaşayan şəxslərin siyahısının dəqiqləşdirilməsi, habelə seçici siyahılarında müvafiq dürüstləşmələrin aparılması haqqında 08 dekabr 2021-ci il tarixli tövsiyə və tapşırıqlarının icrasını təmin etmək məqsədilə və "Yerli icra Hakimiyyətləri haqqında Əsasnamə"nin 5.1.6-cı, 5.1.7-ci və 6.8-ci bəndlərini rəhbər tutaraq

**Qərara alıram:**

1. Binəqədi rayonunda ünvanlar üzrə təsərrüfatbaşına uçot kitablarında əks olunan göstəricilərin müstəsna əhəmiyyətini nəzərə alaraq bu işin mütəşəkkil qaydada aparılmasını təmin etmək məqsədilə aşağıdakı tərkibdən ibarət **"Xüsusi Qərargah"** yaradılsın.

**1.1 Qərargahın sədri:** Elxan Allahverdiyev-Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı

**1.2 Qərargahın üzvləri:**

- Sevinc Süleymanova-Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini;
- Musa Musayev-Binəqədi Rayon Polis İdarəsinin rəisi;
- Heydər Cabbarov-Bakı şəhəri Statistika İdarəsinin rəis müavini;

- İskəndər Cahangir-zadə - Aparatın Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri;
- Sabir Əliyev - Aparatın Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri;
- Nicat Allahverdiyev – Aparatın İctimai- siyasi və humanitar məsələlər şöbəsinin müdiri;
- Yunis Hüseynov – Aparatın Hüquq şöbəsinin müdiri;
- Azər Kərimov – Aparatın Rayon təsərrüfatı şöbəsinin müdiri;
- Ziba Nəcəfova- Aparatın Sosial-İqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdirinin vəzifə səlahiyyətlərini müvəqqəti icra edən, baş məsləhətçi;
- Aynur Quliyeva- Aparatın İnformasiya təminatı və təhlil sektorunun müdiri;
- Elmin Zamanov- Binəqədi Rayon Mənzil Kommunal Təsərrüfatı Birliyinin rəisi;
- Teymur Ağazadə- Binəqədi Enerji Təchizatı və Satışı İdarəsinin rəisi;
- Məhəmmədəli Məmmədov- Biləcəri Enerji Təchizatı və Satışı İdarəsinin rəisi;
- Elçin Bağırov- Binəqədi Rayon Sukanal İdarəsinin rəisi;
- Ramiz Qafarov- Bakı Regional Qaz İstismar Departamentinin Binəqədi rayonu üzrə Texniki Xidmət Sahəsinin rəisi;
- Zaur Qafarov- Binəqədi Rayon İcra Hakimiyyətinin başçısının M.Ə.Rəsulzadə QİƏD üzrə nümayəndəsi;
- Namil Məmmədov- Binəqədi Rayon İcra Hakimiyyətinin başçısının Biləcəri QİƏD üzrə nümayəndəsi;
- Qadir Məmmədov- Binəqədi Rayon İcra Hakimiyyətinin başçısının Binəqədi QİƏD üzrə nümayəndəsi;
- Teyyub Abdullayev- Binəqədi Rayon İcra Hakimiyyətinin başçısının Xocəsən QİƏD üzrə nümayəndəsi;
- Fərid Cəfərov- Binəqədi Rayon İcra Hakimiyyətinin başçısının 28 May QİƏD üzrə nümayəndəsi;

- Mübariz Məmmədov- Binəqədi Rayon İcra Hakimiyyətinin başçısının 1 nömrəli SİƏD üzrə nümayəndəsi;
- Dilbər Şükürova -Binəqədi Rayon İcra Hakimiyyətinin başçısının 2 nömrəli SİƏD üzrə nümayəndəsi;
- Natiq Əliyev-8 saylı Binəqədi birinci seçki dairəsi;
- Həsən Bayramov-9 saylı Binəqədi ikinci seçki dairəsi;
- İskəndər Əliyev-10 saylı Binəqədi üçüncü seçki dairəsi;
- Qəşəm Əhmədzadə-12 saylı Qaradağ-Binəqədi-Yasamal seçki dairəsi;
- Mürsəl Eminov-Binəqədi bələdiyyəsinin sədri;
- Hümbət Hüseynov-M.Ə.Rəsulzadə bələdiyyəsinin sədri;
- Ehtibar Cabbarov-Biləcəri bələdiyyəsinin sədri;
- Rəşad İsayev - Binəqədi qəsəbə bələdiyyəsinin sədrinin vəzifə səlahiyyətlərini müvəqqəti icra edən;
- Nigar Məmmədova- Xocəsən bələdiyyəsinin sədri;

**2.** Xüsusi Qərargahın üzvlərinə tapşırılsın ki, Qərargahın fəaliyyəti Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından əlavə olunmuş tövsiyə və tapşırıqlara ciddi riayət olunmaqla təşkil edilsin.

**2.1.** Uçot işlərinə hazırlıq dövründə uçot işinin dəqiq və mütəşəkkil aparılması ilə bağlı bütün zəruri və təxirəsalınmaz tədbirlər həyata keçirilsin, zərurət yarandığı halda nümayəndəliklərin kompüter dəsti və digər lazımi avadanlıqlarla təchiz olunması təmin edilsin.

**2.2** RİH başçısının sahə və qəsəbə İƏD üzrə nümayəndəliklərinin yerləşdiyi binaların davamlı rabitə, internet xətti və fasiləsiz elektrik enerjisi ilə təmin edilməsi nəzarətdə saxlanılsın.

3.Qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndələrə tapşırılsın ki, 2022-ci ilin yanvar ayının 10-dan başlayaraq ev təsərrüfatlarının uçotu ilə bağlı dəqiqləşdirilmiş məlumatlar 1 (bir) ay müddətində Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin elektron informasiya sisteminə daxil edilməsi təmin edilsin.

4. Binəqədi rayon ərazisində fəaliyyət göstərən bələdiyyələrə tövsiyə olunsun ki, ev təsərrüfatlarının uçotu ilə bağlı effektiv nəticələrə nail olmaq üçün qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndələrlə koordinasiyalı şəkildə fəaliyyət göstərsinlər.

5. Ev təsərrüfatlarının uçotu kitablarının keyfiyyətlə aparılması və vaxtında başa çatdırılmasına nəzarət etmək məqsədilə Aparatın şöbə müdirləri aşağıdakı qaydada qəsəbə və sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklərində təhkim edilsinlər:

- Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri İskəndər Cahangir-zadə - Xocəsən QİƏD üzrə nümayəndəlik;
- Rayon təsərrüfatı şöbəsinin müdiri Azər Kərimov-28 May QİƏD üzrə nümayəndəlik;
- Sosial-İqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdirinin vəzifə səlahiyyətlərini müvəqqəti icra edən Ziba Nəcəfova- Binəqədi QİƏD üzrə nümayəndəlik;
- İctimai siyasi və humanitar məsələlər şöbəsinin müdiri Nicat Allahverdiyev- M.Ə.Rəsulzadə QİƏD üzrə nümayəndəlik;
- Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Səməndər Mənəfov- Biləcəri QİƏD üzrə nümayəndəlik;
- Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Sabir Əliyev- 1 nömrəli SİƏD üzrə nümayəndəlik;
- Hüquq şöbəsinin müdiri Yunis Hüseynov-2 nömrəli SİƏD üzrə nümayəndəlik.

6. Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Aparatının İnformasiya təminatı və təhlil sektorunun müdiri Aynur Quliyevaya tapşırılsın ki, ev təsərrüfatlarının uçotu ilə bağlı işlərin gedişi barədə gündəlik məlumatlar RİAİS vasitəsilə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinə göndərilməsi təmin edilsin.

6.1. Ev təsərrüfatlarının uçotunun gedişatı barədə məlumatların gündəlik olaraq nəticələri haqqında hesabat 2022-ci ilin fevral ayının 25-dək RİAİS

vasitəsilə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinə təqdim edilsin.

7. Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Sabir Əliyevə tapşırılsın ki, Sərəncamın aidiyyəti üzrə çatdırılmasını təmin etsin.

8. Sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Elxan Allahverdiyev**

Əsli ilə düzdür;

**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri vəzifəsi səlahiyyətlərini müvəqqəti icra edən məsləhətçi** **Cəmilə Məmmədova**